**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QƏRBİ AVROPA VƏ AZƏRBAYCAN FORTEPİANO MUSİQİSİNDƏ ORNAMENTİKANIN XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Günel Məmmədrasul qızı Bəkirova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Leyla Mütalib qızı Məmmədova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Güllü Həsən qızı İsmayılova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Aytən Rauf qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
__________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
__________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
__________ **Aytac Elxan qızı Rəhimova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan musiqi mədəniyyətinin zəngin tarixi və ənənələri vardır. Müasir dövrdə Azərbaycan ənənəvi musiqisi, bəstəkar yaradıcılığı bütün dünyada tanınır və böyük maraq doğurur. Azərbaycan musiqisində bir sıra xüsusiyyətlərlə yanaşı, ornamentallıq mühüm yer tutur. Belə ki, şifahi ənənəli professional musiqinin bir qolu olan muğam sənətində ornamentika vacib komponentlərdən biridir. Təsadüfi deyildir ki, "bəzək sənəti" xalqımızın tarixi-mədəni yaddaşı, milli-mənəvi dəyərlərinin daşıyıcılarındandır və xalqımızın dünyaya baxış fəlsəfəsini özündə əks etdirir. Bu baxımdan Şərq və Qərb musiqi mədəniyyətlərinin qovşağında yaranan Azərbaycan fortepiano musiqisində ornamentikanın təzahür yollarının araşdırılması elmi cəhətdən labüd və aktual məsələlərdəndir.

Ornamentika musiqidə əsas ifadə vasitələrindən biridir. Ornamentika və onun musiqi cərəyanlarında, musiqi əsərinin strukturunda əlavə zənginləşdirici element kimi rolu, klassik və mürəkkəb tərkibli ornamentika, not mətnində işarə olunmayan melizmlər və s. bu kimi məsələlər Qərbi Avropa və Azərbaycan fortepiano mədəniyyətlərində mühüm ifadə vasitəsi kimi çıxış edir. Melizmlər dünyanın müxtəlif musiqi mədəniyyətləri üçün səciyyəvidir, onlar daima yenilənir və bir sıra xalqlara məxsus fərdi cizgilər ön plana çıxır. Bu aydın şəkildə fortepiano əsərlərində özünü göstərir. Bu məqamların araşdırılması olduqca vacibdir və mövzunun aktuallığını səciyyələndirən amillərdəndir.

İstənilən xalqın musiqisində ornamentikanı izləmək mümkündür. Burada mühüm məqam, ornamentikanın aid olduğu mədəniyyətin üslub xüsusiyyətlərini özündə əks etdirməsidir. Şərq mədəniyyətinin bir parçası olan Azərbaycan milli musiqisi zəminində formalaşan fortepiano mədəniyyəti həm də dünya musiqisinin bir parçasıdır. Onun ayrılmaz hissəsi olan ornamentika Şərq-Qərb sintezinin öyrənilməsində mühüm sahələrdən biridir. Həmin sintezin əsasını notlaşdırılmış və işarələrlə qeyd olunan ornamentika təşkil edir. Nümunələr əsasında onun təhlili məqam, intonasiya, on iki yarımtonlu temperasiya baxımından oxşar və fərqli cəhətləri təyin

etməyə imkan verir. Hər iki fərqli mədəniyyətdə ornamentikanın xüsusiyyətlərinin müqayisəli şəkildə müəyyən edilməsi də mövzunun aktuallığını şərtləndirir.

Ornamentikanın tədqiqi tarixi, nəzəri, eləcə də təfsir məsələlərini əhatə edir. İşarələrlə verilmiş ornamentikanı şərh etmək sənəti xüsusi olaraq Barokko dövrünün bəstəkar yazı texnikasının öyrənilməsini şərtləndirir. Ornamentika XVII əsr Qərbi Avropa klavir musiqisindən başlayaraq müasir Azərbaycan fortepiano musiqisinə qədər uzun tarixi inkişaf yolu keçmişdir. Ayrı-ayrı bəstəkarların yaradıcılığı onu göstərir ki, Qərbi Avropa və Azərbaycan fortepiano musiqisində bəzəklərin oxşar və fərqli xüsusiyyətləri mövcuddur. Bu məqamların aşkarlanması dissertasiya işinin aktuallığını səciyyələndirir.

Azərbaycan fortepiano musiqisində ornamentikanın tarixini izləyən elmi işlərə rast gəlinmir, bu problem geniş və əhatəli elmi tədqiqat obyekti olmamışdır. Qeyd edilən məsələyə müxtəlif monoqrafiya daxilində bir sıra əsərlərin təhlili zamanı toxunulmuşdur. Burada Azərbaycan fortepiano musiqisinin tədqiqatçıları olan T.M.Seyidov[1,2] və L.S.Rzayevanın[3] elmi əsərlərini göstərmək olar.

Azərbaycan musiqişünaslığı tarixində ornamentika ilk dəfə Ü.Ə.Hacıbəylinin elmi məqalələrində və S.Ə.Rüstəmovun "Tar məktəbi"[4] dərsliyində öz əksini tapmışdır. Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" kitabına da ornamentika haqqında qısa məlumat daxil etmişdir[5]. Muğam tematizmində ornamentika problemi ilk dəfə olaraq N.A.Əliyevanın məqaləsində

---

[1] Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.

[2] Сеидов, Т.М. Развитие жанров Азербайджанской фортепианной музыки / Т.М.Сеидов. – Баку: Шур, – 1991. – 308 с.

[3] Рзаева, Л.С. Современная фортепианная музыка Азербайджана (проблемы творчества и исполнительства): / автореферат дисс. канд. иск. / – Ленинград, 1990. – 17 с.

[4] Rüstəmov, S.Ə. Tar məktəbi / S.Ə.Rüstəmov. – Bakı: Azərnəşr-musiqi sektoru, – 1935. – 119 s.

[5] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostof, – 2010. – s. 126-127.

işıqlandırılmışdır[6]. Burada muğam dəstgahın strukturunda ornamentikanın rolu təhlil edilmişdir. Azərbaycan musiqişünaslığında ornamentika əsasən xalq musiqisi kontekstində R.F.Zöhrabov[7], R.A.Məmmədova[8,9,10], Ə.Z.Məmmədova[11], E.Ə.Babayev[12], A.N.Quliyev[13], G.B.Şamilli[14], V.N.Yunusova[15], İ.V.Pazıçeva[16], A.E.Rəhimova[17], N.K.Mustafayev[18] və başqaları tərəfindən araşdırılmışdır. Eyni zamanda N.O.Abasquliyevanın

---

[6] Алиева, Н.А. Музыкальная орнаментика в становлении мугамного тематизма // Сборник материалов Международного музыковедческого симпозиума «Профессиональная музыка устной традиции народов Ближнего Востока, Среднего Востока и современность», ред. сост. Д.А.Рашидова, отв. ред. Ю.В.Келдыш, Ф.М.Кароматов, – Самарканд: 3-6 октября, – 1978, – с. 111-113.

[7] Зохрабов, Р.Ф. Азербайджанская профессиональная музыка устной традиции: мугамы-дасттях и зерби-мугамы / Р.Ф.Зохрабов. – Баку: Марс-Принт, – 2010. – 458 с.

[8] Sarabski, R.A. Azərbaycan incəsənətində yaradıcılığın ornamentli təbiəti // – Bakı: Qobustan: incəsənət toplusu, – 1975. № 2 (75), – s. 83-84.

[9] Мамедова, Р.А. Об орнаментальной природе творчества в искусстве азербайджанского ковра и мугама // Тезисы материалов Международного симпозиума по искусству восточных ковров, – Баку: 5-10 сентябрь, – 1983, – с. 94-95.

[10] Мамедова, Р.А. О едином функциональном содержании азербайджанского искусства // – Баку: Harmony: международный музыкальный культурологический журнал, – 2009, № 8. УРЛ: http://harmony.musigi-dunya.az/rus/archivereader.asp?s=1&txtid=363

[11] Мамедова, А.З. Музыкальные миниатюры Азербайджана (народные песни – основные особенности строения) / А.З.Мамедова. – Баку: Элм, –1990. – 128 с.

[12] Babayev, E.Ə. Azərbaycan muğam dəstgahlarında ritmintonasiya problemləri / E.Ə.Babayev. – Bakı: Ergün, – 1996. – 125 s.

[13] Гулиев, А.Н. Принципы контрастности в музыкальной драматургии азербайджанского мугама / А.Н.Гулиев. – Баку: Шарг-Гарб, – 2009. – 136 с.

[14] Шамилли, Г.Б. Философия Музыки. Теория и практика искусства maqam. Отв. ред. тома И.К.Кузнецов / Г.Б.Шамилли. – Москва: Садра, – 2020. – 552 с.

[15] Юнусова, В.Н. Творческий процесс в классической музыке Востока: / автореферат дисс. канд. иск. / – Москва, 1995. – 37 с.

[16] Пазычева, И.В. Вариантность в Азербайджанской музыке / И.В.Пазычева. – Баку: Элм и тахсил, – 2015. – 375 с.

[17] Rəhimova, A.E. Şifahi ənənəli Azərbaycan musiqisinin janrlararası və bədii əlaqələri: / sənətşünaslıq üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı: 2014. – 45 s.

[18] Mustafayev, N.K. Azərbaycan xalq rəqslərində melizmlər (melodik bəzəklər) // – Bakı: Müasir mədəniyyətşünaslıq, – 2013. № 4 (6), – s. 59-62.

fortepiano fakültəsinin tələbələri üçün nəzərdə tutulan dərs vəsaitində Qərbi Avropa musiqisində bəzi melizm növlərinə aydınlıq gətirilmiş, onların ifasına dair nümunələr verilmiş, eləcə də Barokko dövrünün təlimatlarında melizmlərlə bağlı hissələr qısa şəkildə təqdim edilmişdir[19].

Qərbi Avropa fortepiano musiqisində ornamentika ilə əlaqəli yetəri sayda tədqiqatlar, monoqrafiyalar, məqalələr vardır. Həmin işlərdə təkcə klavir deyil, ümumiyyətlə, musiqidə bəzəklər təhlil edilmişdir. Onların arasında Adolf Beyşlaq (*Адольф Бейшлаг*)[20], Edvard Danıroyter (*Edward Dannreuther*)[21,22], Henri Alfred Hardinq (*Henry Alfred Harding*)[23], Frederik Neumann (*Frederick Neumann*)[24], Artur Luis Rassell (*Arthur Louis Russell*)[25], Heynrix Eyrlix (*Heinrich Ehrlich*)[26], Con Petri Dann (*John Petrie Dunn*)[27] və digərlərinin kitablarını qeyd etmək olar. Eyni zamanda Yakob Qran (*Jacob Gran*)[28],

---

[19] Абаскулиева, Н.О. О некоторых проблемах исполнения мелизмов в фортепианных произведениях / Н.О.Абаскулиева. – Баку, 2010. – 84 с.

[20] Бейшлаг, А. Орнаментика в музыке / А.Бейшлаг. – Москва: Музыка, – 1978. – 320 с.

[21] Dannreuther, E. Musical Ornamentation. Part I / E.Dannreuther. – London; New York: Novello, Ewer and Co, – 1893. – 240 p.

[22]Dannreuther, E. Musical Ornamentation. Part II / E.Dannreuther. – London; New York: Novello, Ewer and Co, – 1893. – 185 p.

[23] Harding, H.A. Musical Ornaments, simply explained with numerous examples from the works of J.S. Bach, Handel, Clementi, Czerny, Haydn, Mozart, Beethoven, Mendelssohn, Chopin, Schumann and Grieg / H.A.Harding. – London: Weekes and Co, – 1898. – 37 p.

[24] Neumann, F. Ornamentation in Baroque Music and Post-Baroque Music: with Special Emphasis on J.S.Bach / F.Neumann. – New York: Princtone University Press, – 1978. – 630 p.

[25] Russell, A.L. The Embellishments of Music: A Study of the Entire Range of Musical Ornaments from the Time of John Sebastian Bach / A.L.Russell. – New Jersey: Berthold tours, esq., – 1894. – 66 p.

[26] Ehrlich, H. The Ornamentation in Beethoven's piano-forte works / H.Ehrlich. – Leipzig; New York: Steingraber Verlag; E. Schuberth & Co., – 1898. – 12 p.

[27] Dunn, J.P. Ornamentation in the works of Frederick Chopin / J.P.Dunn. – London: Novello, – 1921. – 75 p.

[28] Gran, J. Ornamental and Motivic Integration in Chopin's Op. 9 Nocturnes // – Indiana: Indiana Theory Review, – 2017. Vol. 34. № 1-2, – pp. 23-49.

Çarlz Rosen (*Charles Rosen*)[29], Valter Emeri (*Walter Emery*)[30], Con Aleksandr Fuller Maitland (*John Alexander Fuller Maitland*)[31], Rocer Vibberli (*Roger Wibberley*)[32] məqalələrini göstərmək mümkündür.

Lakin Avropa və Azərbaycan alimlərinin elmi işlərinə baxmayaraq, təqdim olunan dissertasiya işində ilk dəfə olaraq Qərbi Avropa və Azərbaycan fortepiano mədəniyyəti tarixində ornamentikanın xüsusiyyətləri, sadə və mürəkkəb ornamentlərin öyrənilməsi həyata keçirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti fortepiano sənəti, predmeti isə Qərbi Avropa və Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın xüsusiyyətləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Qərbi Avropa və Azərbaycan fortepiano musiqisində ornamentikanın xüsusiyyətlərini izləmək, eləcə də sadə və mürəkkəb ornamentikanın musiqi mətnində əsas və ikinci dərəcəli yerini Qərbi Avropa və Azərbaycan bəstəkarlarının fortepiano musiqisi əsasında ümumi amil kimi müəyyənləşdirməkdir. Bu isə aşağıdakı vəzifələrin həllini labüdləşdirmişdir:

– Qərbi Avropa fortepiano musiqisində ornamentikanın formalaşması prinsipləri və onun quruluşunu araşdırmaq;

– Qərbi Avropa fortepiano musiqisində Barokko, klassisizm, romantizm, impressionizm, müasir dövr bəstəkarlarının yaradıcılığında ornamentikanı misallar üzərində izləmək;

– Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanı təhlil etmək;

– Fərdi bəstəkar üslubunda ornamentikanın rolunu araşdırmaq;

– Müasir yazı texnikası kontekstində Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında bəzəkləri təhlil etmək;

---

[29] Rosen, Ch. Ornament and Structure in Beethoven // – London: The Musical Times, – 1970. Vol. 111. № 1534, – pp. 1198-1199+1201.

[30] Emery, W. Bach's ornaments // – London: The Musical Times, – 1948. Vol. 89. № 1259, – pp. 14-16.

[31] Fuller Maitland, J.A. The Interpretation of Musical Ornaments // – London: The Musical Times, – 1911. Vol. 52. № 824, – pp. 647-651.

[32] Wibberley, R. Ornamental Options? // – London: The Musical Times, – 1987. Vol. 128. № 1730, – p. 188.

– Qərbi Avropa və Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın üsullarını izləmək;

– Azərbaycan fortepiano musiqisində ornamentikanın spesifik formalarını müəyyənləşdirmək;

– Azərbaycan bəstəkarlarının fortepiano musiqisində mürəkkəb bəzəkləri təhlil etmək.

**Tədqiqat metodları.** Dissertasiyada Qərbi Avropa və Azərbaycan fortepiano musiqisində ornamentikanın öyrənilməsi empirik və analitik metodlardan yararlanmanı şərtləndirir. Belə ki, dissertasiyada sistemli, tarixi və müqayisəli metodlardan istifadə edilməklə ornamentikanın xüsusiyyətləri müəyyənləşdirilmiş və bəzi əsərlər əsasında təhlillər aparılmışdır.

Tədqiqatın metodoloji əsasını Azərbaycan və xarici musiqişünasların elmi əsərləri təşkil edir. Burada Ü.Ə.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı fundamental əsəri ilə yanaşı, M.C.İsmayılov[33], C.İ.Həsənova[34], G.R.Mahmudova[35], F.Ş.Əliyeva[36], Ü.S.Əliyeva[37] və digərlərinin əsərlərini qeyd etmək olar. Dissertasiyada A.Ə.Zülfüqarova[38], F.Z.Xəlilova[39], T.M.Seyidov, L.S.Rzayeva, L.H.Abasquliyeva[40],

---

[33] İsmayılov, M.C. Azərbaycan musiqisinin məqam və muğam nəzəriyyəsi. Dərs vəsaiti / M.C.İsmayılov. – Bakı: Bakı Musiqi Akademiyası, – 2016. – 224 s.

[34] Həsənova, C.İ. Azərbaycan musiqisinin məqamları. Dərs vəsaiti / C.İ.Həsənova. – Bakı: Elm və Təhsil, – 2012. – 232 s.

[35] Махмудова, Г.Р. Остинатность в музыке устной традиции Азербайджана / Г.Р.Махмудова. – Баку: Адильоглу, – 2001. – 151 с.

[36] Əliyeva, F.Ş. Musiqi tariximizin səhifələri / F.Ş.Əliyeva. – Bakı: Adiloğlu, – 2004. – 320 s.

[37] Əliyeva, Ü.S. Musiqi dilinin əsas elementləri. Metodiki vəsait / Ü.S.Əliyeva. – Bakı: Mütərcim, – 2008. – 55 s.

[38] Зульфугарова, А.А. Фортепьянное творчество азербайджанских композиторов: / автореферат дисс. канд. иск. / – Москва, 1954. – 12 с.

[39] Халилова, Ф.З. Очерки истории азербайджанской фортепианной культуры: / автореферат дисс. канд. иск. / – Баку, 1969. – 21 с.

[40] Абаскулиева, Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры: / автореферат дисс. канд. иск. / – Баку, 2005. – 28 с.

M.S.Sadıqzadə[41], S.Ə.Mirzəyev[42] kimi Azərbaycan fortepiano musiqisinin öyrənilməsi istiqamətində həyata keçirilən tədqiqatlara müraciət edilmişdir.

Dissertasiyada Azərbaycan musiqişünasları ilə yanaşı, xarici tədqiqatçıların da elmi əsərlərinə müraciət olunmuşdur. Burada Karl Filip Emanuel Bax (*Carl Philipp Emanuel Bach*)[43], Aldrix Putnam (*Aldrich Putmam*)[44], Paul Henri Lanq (*Paul Henry Lang*)[45], Corc Bülov (*George Buelow*)[46] Cek Boss (*Jack Boss*)[47], Luis İbsen əl Faruqi (*Lois İbsen al Faruqi*)[48], Aleksandr Alekseyev (*Александр Алексеев*)[49,50], Mixail Druskin (*Михаил Друскин*)[51], İsayya Braudo

---

[41] Садыгзаде, М.Н. Исполнительская интерпретация фортепианной музыки Азербайджанских композиторов в аспекте современной техники письма (1975-2000 гг.): / автореферат дис. доктора философии по искусствоведению / – Баку, 2010. – 30 с.

[42] Mirzəyev, S.Ə. Fortepiano ədəbiyyatında müasir notasiya simvollarının şərhi və ifaçılıq xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2015. – 24 s.

[43] Бах, К.Ф.Э. Опыт истинного искусства клавирной игры. Пер. и комментарий Е.Юшкевич / К.Ф.Э.Бах. – Санкт-Петербург: Early Music Publishing House, – 2006. – 169 с.

[44] Putnam, A. Bach's Technique of Transcription and Improvised Ornamentation // – New-York: The Musical Quarterly, – 1949. Vol. 35. № 1, – pp. 25-35.

[45] Lang, P.H. Musicology and Performance / P.H.Lang. – Yale: Yale University Press, – 1997. – 272 p.

[46] Buelow, G.J. A Study Baroque Performing Practice // – London: The Musical Times, – 1979. Vol. 120. № 1638, – pp. 625+638-639.

[47] Boss, J. Schoenberg on Ornamentation and Structural levels // – New-York: Journal of Music Theory, – 1994. Vol. 38. № 2, – pp. 187-216.

[48] al Faruqi, L.İ. Ornamentation in Arabian improvisational Music: A Study of interrelatedness in the Arts // – Berlin: The World of Music, – 1978. Vol. 20. № 1-2, – pp. 17-32.

[49] Алексеев, А.Д. История фортепианного искусства. В 3 частях: учебник. Изд. 5-е. Ч. 1 и 2 / А.Д.Алексеев. – Санкт-Петербург [и др.]: Лань, Планета музыки, – 2019. – 415 с.

[50] Алексеев, А.Д. История фортепианного искусства. В 3 частях: учебник. Изд. 5-е. Ч. 3 / А.Д.Алексеев. – Санкт-Петербург [и др.]: Лань, Планета музыки, – 2019. – 284 с.

[51] Друскин, М.С. Клавирная музыка. Испании, Англии, Нидерландов, Франции, Италии, Германии XVI-XVIII веков / М.С.Друскин. – Ленинград: Музгиз, – 1960. – 284 с.

(*Исайя Браудо*)[52] Leonid Royzman (*Леонид Ройзман*)[53], Nikolay Kopçevskiy (*Николай Копчевский*)[54], Lev Mazel (*Лев Мазель*)[55], Serqey Skrebkov (*Сергей Скребков*) [56], Viktor Tsukerman (*Виктор Цуккерман*)[57], Yuriy Xolopov (*Юрий Холопов*) [58] və digərlərinin elmi işlərini qeyd etmək olar.

Qərbi Avropa və Azərbaycan bəstəkarlarının fortepiano musiqisində melizm elementlərinin daha ətraflı təhlil və öyrənilməsi məqsədilə ABŞ və Qərbi Avropada yerləşən müxtəlif kitabxanaların, Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin, Rusiya Dövlət Kitabxanasının, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Kitabxanasının, Azərbaycan Milli Kitabxanasının materiallarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində irəli sürülən əsas müddəalar bunlardır:

– ornamentikanın təkcə Barokko dövrünün deyil, ümumiyyətlə klavir musiqisinin hər bir mərhələsində mühüm əhəmiyyətə malik ifadə vasitəsi olması;

– Qərbi Avropa fortepiano musiqisində formalaşmış ornamentikanın Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinə də təsir etməsi;

---

[52] Браудо, И.А. Об органной и клавирной музыке / И.А.Браудо. – Ленинград: Музыка, – 1976. – 152 с.

[53] Ройзман, Л.И. Об исполнении украшений (мелизмов) в произведениях старинных композиторов (XVII первая половина XVIII столетия) // Очерки по методике игре на фортепиано: сб. ст. Под ред. А.Николаева. Вып. 2. – Москва: Музыка, – 1965. – с. 95-125.

[54] Копчевский, Н.А. Клавирная музыка: Вопросы исполнения / Н.А.Копчевский. – Москва: Музыка, – 1986. – 94 с.

[55] Мазель, Л.А. Строение музыкальных произведений / Л.А.Мазель. – Москва: Музыка, – 1986. – 528 с.

[56] Скребков, С.С. Художественные принципы музыкальных стилей / С.С.Скребков. – Музыка, – 1973. – 446 с.

[57] Цуккерман, В.А. Анализ музыкальных произведений. Часть 1 / В.А.Цуккерман. – Москва: Музыка, – 1988. – 173 с.

[58] Холопов, Ю.Н. Гармония: теоретический курс. Учебник / Ю.Н.Холопов. – Москва: Лань, – 2003. – 540 с.

– Azərbaycan fortepiano musiqisinin milli məqamlara əsaslanması bəzəklərin istifadə yerini, interval tərkibini, "rəngini" şərtləndirməsi;

– Azərbaycan fortepiano musiqisində ornamentikanın sadə və mürəkkəb növlərinin mövcud olması;

– Azərbaycan bəstəkarlarının fortepiano opuslarında "melizm zənciri fəndi"nin əksini tapması;

– Azərbaycan bəstəkarlarının ornamentika sahəsində əldə etdikləri mühüm nailiyyətin mürəkkəb ornamental formullar olması;

– fərdi bəstəkarlıq üslubunda ornamentika mühüm rol oynaması.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq:

– Azərbaycan musiqi elmində Qərbi Avropa və Azərbaycan fortepiano musiqisində ornamentikanın spesifik xüsusiyyətləri araşdırılmışdır;

– Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın fərdi bəstəkarlıq üslubunda rolu müəyyənləşdirilmişdir;

– Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında ornamentikanın təzahür yolları aşkar edilmişdir.

– A.Zeynallının Doqquz fuqalarında bəzəklər təhlil olunmuşdur. Yeni yazı texnikası kontekstində F.Q.Qarayev, R.T.Həsənova, Z.Y.Fəhradov, R.R.Xəlilov, E.Ə.Mirzəyev, A.V.Qəmbərli, T.İbişov, T.N.Qasımzadə kimi bəzi müəlliflərin əsərləri ornamentika baxımından araşdırılmışdır;

– Azərbaycan bəstəkarlarının fortepiano əsərləri əsasında bəzək cədvəlləri müəyyən olunmuşdur. Onların sistemləşdirilməsinin əsas məqsədi yüz ilə yaxın tarixi dövr ərzində milli fortepiano musiqisində bəzəklərin keçdiyi inkişaf yolunu təqdim etmək olmuşdur;

– Qərbi Avropa fortepiano musiqisinə aid kitablar əsasında bəzəklərin cədvəl şəklində hazırlanması həyata keçirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyada nəzəri cəhətdən əldə edilən nəticələr Azərbaycan və Qərbi Avropa fortepiano musiqisində ornamentikanın xüsusiyyətlərinin müəyyən olunması ilə bağlı elmi araşdırmalarda istifadə oluna bilər. Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində mürəkkəb ornamentika

qaydalarının açıqlanması fortepiano ifaçılığı ilə yanaşı, digər ixtisaslar üzrə tədris olunan "İxtisas" fənnində "Melizmlər" mövzusunun öyrənilməsində əlavə kimi istifadə oluna bilər. Dissertasiyanın materialları həm də "Musiqi forması" kursu çərçivəsində ifadə vasitələrinin öyrənilməsi istiqamətində Azərbaycan dilində faydalı nəzəri mənbədir.

Tədqiqat işinin praktiki əhəmiyyəti isə onun müəyyən müddəa və nəticələrindən ali və orta ixtisas musiqi məktəblərində "Fortepiano ifaçılığının tarixi", "Musiqi tarixi" və s. kimi fənlərin tədrisində və müxtəlif fənlərin tərkibində ifadə vasitələrinin öyrənilməsinə dair əlavə mənbə kimi istifadə edilə bilər. Tədqiqatın praktiki əhəmiyyətini səciyyələndirən digər mühüm xüsusiyyət isə onun həm də musiqiçilər üçün bəzəklərin ifası ilə bağlı müəyyən göstərici rolunda çıxış etməsidir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin materialları, müddəaları və onun elmi nəticələri "Sənət Akademiyası", "Qərbi Kaspi Universitetinin Elmi Xəbərləri", "Mədəniyyət dünyası", "Axtarışlar", "Konservatoriya", "Musiqi dünyası", "Gənc tədqiqatçı", "Музыка и время", "Музыковедение", "Bulletin of Kyiv National University of Culture and Arts. Series in Musical Art" kimi beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə, eləcə də "Искусства глазами молодых", "İnternational society for music education. 33rd World Conference", "Слово молодых ученых: актуальные вопросы искусствознания" adlı doktorant və tələbələrin Ümumrusiya elmi-praktiki konfransı, eləcə də "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" adlı XVII, XVIII və XXI Beynəlxalq elmi-praktiki konfranslarında, "Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransı" və "Müasir Azərbaycan bəstəkarı və zaman" adlı Respublika və Beynəlxalq elmi konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya

giriş, üç fəsil, doqquz paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və Əlavələr bölməsindən ibarətdir. Giriş 8 səhifə olmaqla 12 359, I fəsil 56 səhifə olmaqla 79 170, II fəsil 52 səhifə olmaqla 81 440, III fəsil 37 səhifə olmaqla 54 359, nəticə hissəsi isə 7 səhifə olmaqla 11 677 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" bölməsi istisna olmaqla 162 səhifə və 241 183 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, onun elmi yeniliyi açıqlanmış, tədqiqatın məqsəd və vəzifələri, o cümlədən elmi araşdırmada tətbiq olunan metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiyanın **I fəsli "Qərbi Avropa fortepiano musiqisində ornamentikanın xüsusiyyətləri"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir.

**1.1. "Qərbi Avropa fortepiano musiqisində ornamentikanın formalaşma prinsipləri və onun quruluşu"** adlanır.

Ornamentika musiqidə əsas ifadə vasitələrindən biri olduğu kimi, həm də melodiyanın bəzədilməsi üsuludur. Bəzəklər musiqi mətninə əlavə edilən səs və ya səslərdir. Qərbi Avropa klavir musiqisində ornamentika öz başlanğıcını vokal, orqan və lütnya musiqisindən götürmüşdür.

Ornamentika iki növdən ibarətdir: melizm və sərbəst ornamentika. Melizmlər kiçik melodik bəzəklərdir və ornamentikanın bir hissəsidir. Buraya qruppetto, mordent, forşlaq, trel və s. daxildir. Sərbəst ornamentikaya isə qammavari passajlar, tirata, fioritura, fiqurasiyalar, diminutsiya və s. aiddir[59].

Hər bir bəzək işarəsinin ölçüsü, ritmi, uzunluğu vardır və onlar müəyyən tempdə ifa olunur[60]. Melizmlər sadə bəzək kateqoriyasını

---

[59] Энциклопедический музыкальный словарь / Отв. Ред. Г.В.Келдыш. Москва: Государственное научное издательство. – 1959. – с. 195.
[60] Haas, E.C. The Grammar of Ornament: Ornamentation & Embellishment in the Late Baroque / E.C.Haas. – Boston: Peacock Press, – 1998. – 30 p.

təşkil edirlər. Fortepiano musiqisində sadə bəzək növlərindən yaranan birləşmələrə təsadüf edilir ki, onlar da mürəkkəb bəzək növünü əmələ gətirirlər.

Qərbi Avropa musiqisində ornamentikanın mərhələlərindən danışarkən, amerikalı tədqiqatçı Ernst Ferand (*Ernst Thomas Ferand*) onu beş mərhələyə bölmüşdür. İlk iki mərhələ fortepiano musiqisində ornamentikanın mənbəsi sayılır. Digər mərhələ 1650-1750 illəri əhatə edir. Qeyd edilən dövr Jak Şampion de Şambonyerdən (*Jacques Champion de Chambonnières*) başlayaraq İ.S.Baxın yaradıcılığını əhatə edir. Dördüncü mərhələ isə 1750-1820-ci illərlə bağlıdır. Burada bəzəklərin əsasən not mətninə fiksasiyası tendensiyası başlanılır. Qərbi Avropa musiqisində ornamentikanın növbəti mərhələsi 1820-1910-cu illəri əhatə edir. Həmin dövrdə ornamentikaya yeni münasibət müşahidə olunur. E.Ferandın XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərdiyini nəzərə alaraq, altıncı – sonuncu mərhələ kimi müasir dövrün musiqisində ornamentikanı əlavə etmək olar. Burada ornamentika yeni ifaçılıq üsulları, yeni qrafik şəkillər ilə daha da zənginləşir.

**1.2. "Barokko dövrünün klavir musiqisi tarixində ornamentikanın təzahür formaları"** adlanır. Ornamentika ingilis, fransız, alman və italyan klavir musiqisində vacib rol oynayır.

XVII-XVIII əsr ornamentikasının xüsusiyyətləri aid olduğu regiona, məktəbə, hətta alətə görə dəyişir. Onun səbəbi isə ilk növbədə Barokko dövründə bəzəklər haqqında Qərbi Avropa musiqisində ümumi qəbul olunmuş qaydaların olmaması idi. Regionlara bölünməklə yanaşı, bir bəstəkarın bəzək sistemi digərindən fərqlənirdi. Bu səbəbdən bəstəkarlar traktatlar yazır və ya əsərlərinin əvvəlində bəzəklərin ifası ilə bağlı göstərişlər verir.

İngilis klavir sənəti Avropada ilk yaranmış klavir məktəblərindən biridir. Onu digər məktəblərdən fərqləndirən əsas cəhətlərdən biri də özünəməxsus bəzək işarələri sisteminin olmasıdır. Burada ən çox təsadüf edilən işarə aşağı və yuxarı istiqamətdə verilmiş bir və ya iki qövsvarı xətdən ibarət bəzəklərdir.

Fransız klavir məktəbinin bəzək sistemi Qərbi Avropa musiqi mədəniyyətində xüsusi yerə malikdir və bu məktəb Avropada standartlaşmış bəzək sisteminin yaranmasında mühüm rol oynamışdır.

J.Ş.Şambonyerin bəzək cədvəli Fransa klavir musiqisi tarixində ilk bəzək sistemidir. Jan Anri d'Anqlebertin (*Jean Henry d'Anglebert*) verdiyi bəzək sistemi isə daha zəngin olmaqla yanaşı, XVII-XVIII əsr klavir ifaçılığında mühüm əhəmiyyətə malikdir. Bəzəklərin işarə ilə qeyd edilməsi da fransız klavir musiqisində yaranmış ənənədir.

İtalyan klavir məktəbi də olduqca zəngin ənənələrə malikdir. Bu məktəbin həmin dövrdə ən mühüm xarakterik xüsusiyyəti sərbəst ornamentikadan istifadə olunmasıdır. Əgər fransız klavir məktəbində bəzəklərlə bağlı hər bir bəstəkarın özünəməxsus bəzək sistemi varsa, italyan klavir musiqisində bu ənənəyə o qədər də təsadüf edilmir.

Barokko dövrünün alman klavir musiqisi dedikdə ilk növbədə İ.S.Bax xatırlanır. Bəstəkarın ornamentika cədvəli 13 işarədən ibarətdir və 1720-ci ildə böyük oğlu V.F.Bax üçün yazdığı əsərin əvvəlində verilmişdir. Dahi sənətkarın bəzək cədvəlinə fransız bəstəkarlarının, xüsusilə J.A.d'Anqlebertin bəzək sistemi təsir etmişdir. İ.S.Baxın klavir musiqisində rast gəlinən ornamentika növlərinin Qərbi Avropa klavir musiqisi üçün ornamentika ensiklopediyası rolunu oynamasını əminliklə qeyd etmək olar.

Qərbi Avropa, xüsusilə İ.S.Bax musiqisində ornamentikanın öyrənilməsində mühüm xidmətləri olan tədqiqatçılardan biri də polşa-amerikalı musiqişünas F.Neumann olmuşdur. Onun "Barokko və son Barokko dövrünün ornamentikası: İ.S.Baxın əsərləri nümunəsində"[61]. adlı kitabı Bax musiqisində bəzəklərin öyrənilməsinə mühüm töhfədir. Bu səbəbdən həmin kitabın sonunda verilən ornamentikası lüğəti azərbaycan dilinə tərcümə olunmuşdur.

**1.3. "Klassisizm, romantizm, impressionizm və XX əsr fortepiano musiqisində ornamentikanın xüsusiyyətləri"** adlanır.

Klassisizm dövründə ornamentika tarixinin önəmli cəhəti kimi Qərbi Avropa fortepiano musiqisində bəzəklərin standartlaşdırılması, ümumi terminologiyanın yaranması, bəzi bəzək növlərinin bir ad altında birləşdirilməsini qeyd etmək olar. Xüsusilə, L.V.Bethovenin fortepiano əsərlərini təhlil edərkən, bəzəklərin öz funksiyasını daha genişləndirməsini müəyyənləşdirmək mümkündür.

---

[61] Neumann, F. Ornamentation in Baroque Music and Post-Baroque Music: with Special Emphasis on J.S.Bach / F.Neumann. – New York: Princtone University Press, – 1978. – pp. 577-604.

Romantizm dövrünün fortepiano musiqisində sadə, qarışıq-sərbəst ornamentika, eləcə də müxtəlif polisəsləmmələrin tərkibində ornamentika növləri geniş şəkildə öz əksini tapmışdır. Nümunə üçün qeyd edək ki, ornamentika ilə əldə olunan registr genişlənməsi digər dövrlərlə müqayisədə romantizmdə daha intensiv rast gəlinir. Burada nümunə üçün F.Listin "Qasırğa" (*Chasse-neige*), "Mazepa" (*Mazeppa*) etüdlərini və digər əsərlərini göstərə bilərik. Romantizm dövrünün digər nümayəndəsi F.Şopenin fortepiano yaradıcılığında bəzəklərə tamamilə fərqli yanaşmanı müəyyən etmək olar. Onun incə, zərif melodiyalarını bəzəklərsiz təsəvvür etmək çətindir.

İmpressionizm dövründə də ornamentika mühüm amil kimi çıxış edir və burada cərəyanın qaydaları çərçivəsində melizmlərə yeni baxış var. Burada ornamentika boyalar palitrasını gücləndirən amil, eləcə də fakturanın detallarında vacib komponentdir. Nümunə üçün, K.Debüssinin "12 etüd" silsiləsinin №8 (*Pour les agrements*) müxtəlif bəzək növlərindən təşkil olunaraq bu dövrün ornamentikasının vacib cizgilərini əks etdirir.

XX əsrin fortepiano musiqisində isə ornamentika yeni bir mərhələyə yüksəlir. Müasir dövrün fortepiano musiqisində bəzəklər həm də alətin daxili konstruksiyasında, simlər üzərinə müxtəlif əşyalar yerləşdirməklə və s. bu kimi fəndlərdən yararlanmaqla ifa edilir. Belə növ bəzəklər not mətnində yeni işarələrlə əksini şərtləndirmişdir. Corc Kramın (*George Crumb*) "Makrokosmos" (*Makrokosmos*) (I dəftər) əsərində royal daxilində müxtəlif üsullarla ifa edilən trel, qlissando və s. bu kimi bəzək növlərinə təsadüf edilir.

Eyni zamanda Qərbi Avropa Avropa musiqisində bəzəklərin daha ətraflı öyrənilməsi məqsədi ilə Henri Alfred Hardinq "Musiqi ornamentikası. İ.S.Bax, Hendel, Klementi, Çerni, Haydn, Motsart, Bethoven, Şopen, Şuman və Qriqin çoxsaylı əsərləri nümunəsində sadə izahat"[62] və K.F.E.Baxın "Klavir ifaçılığı əsil incəsənət

[62] Harding, H.A. Musical Ornaments, simply explained with numerous examples from the works of J.S. Bach, Handel, Clementi, Czerny, Haydn, Mozart, Beethoven, Mendelssohn, Chopin, Schumann and Grieg / H.A.Harding. – London: Weekes and Co, – 1898. – 37 p.

təcrübəsi kimi" kitabının bəzəklərlə bağlı olan hissəsi[63] azərbaycan dilinə tərcümə olunmuşdur.

II fəsil **"Azərbaycan fortepiano musiqisində ornamentikanın tarixi inkişaf yolları"** adlanır və üç paraqrafdan ibarətdir.

**2.1. "Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın inkişaf xüsusiyyətləri"** adlanır. Bu paraqrafda ornamentikanın tarixi inkişaf mənzərəsi yaradılmışdır.

Qərbi Avropa mədəniyyətinə aid fortepiano aləti Azərbaycan musiqisinə qısa zaman çərçivəsində assimilyasiya olunmuş və Şərqlə Qərbin musiqi sintezi ideyalarının inkişafında mühüm rol oynamışdır.

Azərbaycan fortepiano musiqisində melizmlərin Qərbi Avropa bəzək elementləri ilə sintezi məsələsi fortepiano alətinin 12 yarımton temperasiyası və Ü.Hacıbəylinin məqam nəzəriyyəsi ilə bağlıdır.

Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ilk ornamentika nümunələrinə A.Zeynallının "Uşaq süitası" məcmuəsindən "Uşaq və buz" nömrəsində rast gəlinir. Burada bəstəkar əsərin repriza hissəsində melodiyanın təkrarı zamanı mordent işarəsindən istifadə etmişdir.

Ü.Hacıbəylinin "Uşaq albomu" adlı pyeslər məcmuəsində iki səsdən ibarət müxtəlif interval tərkibli mordent növlərinə təsadüf edilir. Belə ki, kiçik və böyük sekunda, kiçik tersiya, kvinta, kvarta intervallarında mordentlər verilmişdir.

N.Tağızadə-Hacıbəyovun əsərlərində də ornamentika nümunələrini izləmək olar. Onun 1929-cu illərdə yazdığı əsərlərində müxtəlif forşlaq növlərinə rast gəlinir. Eyni zamanda bəstəkarın "Etüd"ünün tərkibində forşlaq, arpecio, qruppetto aparıcı ifadə vasitələri sırasındadır.

1930-cu illərdə M.Əhmədov, C.Hacıyev, T.Quliyev, Ə.Cavid, S.Hacıbəyov, Ə.Abbasov, S.Ələsgərov və digərlərinin fortepiano yaradıcılığında müxtəlif bəzək kombinasiyalarını müşahidə etmək mümkündür. C.Hacıyevin "24 prelüd" əsərinin sonuncu nömrəsində

---

[63] Бах, К.Ф.Э. Опыт истинного искусства клавирной игры. Пер. и комментарий Е.Юшкевич / К.Ф.Э.Бах. – Санкт-Петербург: Early Music Publishing House, – 2006. – с. 52-101.

forşlaq və trellərin növbələşməsi qeyd oluna bilər. Ə.Cavidin "9 variasiya" əsərində mürəkkəb tərkibli ornamentikadan istifadə olunmuşdur. Digər tərəfdən T.Quliyevin fortepiano üçün "Variasiyalar"ında sadə melizmlər romantik və caz harmoniya qanunları ilə birləşərək onun üslubunun vasitələrinə çevrilir.

Əgər Azərbaycan fortepiano musiqisinin yarandığı ilkin dövrlərdə ornamentika özünü sadə formalarda göstərirdisə, XX əsrin ortalarından başlayaraq, xüsusilə Q.Qarayev və F.Əmirovun fortepiano əsərlərində ornamentika daha da mürəkkəbləşir.

Azərbaycan fortepiano musiqisi A.Məlikov, M.Mirzəyev, V.Adıgözəlzadə, A.Əlizadə, F.Qarayev, A.Dadaşov, C.Qarayev, C.Quliyev və başqalarının fortepiano opuslarında verilən müxtəlif bəzək fəndləri ilə daha da zənginləşir. Burada arpecio, fioritura, trel, qlissando və s. bu kimi bəzək növləri müxtəlif kombinasiyalarda təqdim olunur. Bəstəkarlar XX əsrin musiqi ənənələri kontekstində də ornamentikaya öz münasibətlərini bildirir və onların yaradıcılığında yeni ifa üsullarına əsaslanan bəzəklərə rast gəlinir. Burada simlər üzərində ifa edilən trel və forşlaqları, müxtəlif formalarda verilən qlissandoları, simlər üzərində edilən tremolo və s. göstərmək olar. Bunlar ornamentikanın Azərbaycan fortepiano musiqisində yüz ilə yaxın bir dövr ərzində keçdiyi inkişaf yolunu xarakterizə edir.

Eyni zamanda Azərbaycan fortepiano musiqisində ornamentikanın tədqiqi əsnasında ilk pianoçu-tədqiqatçılardan F.Z.Xəlilovanın 1968-ci ildə yazdığı "Azərbaycan fortepiano mədəniyyətinin tarixi oçerkləri"[64] dissertasiya işinin nəşr olunması həyata keçirilmişdir.

**2.2. "Fərdi bəstəkarlıq üslubunun müəyyənləşdirilməsində ornamentikanın xüsusiyyətləri və tipologiyasının aparılması"** adlanır. Azərbaycan bəstəkarlarının fortepiano musiqisini araşdırarkən verilən bəzəklərin onların yaradıcılığının xarakterik cizgilərini ifadə edən xüsusiyyətə çevrilməsini müəyyənləşdirmək mümkündür. Həmin bəstəkarlardan xüsusilə, Q.Qarayev, F.Əmirov və V.Mustafazadəni vurğulamaq olar.

---

[64] Фарида Халилова. Научные труды. Архивные материалы. Воспоминания / сост. Л.М.Мамедова, Г.М.Бекирова. – Баку: Мутаржим, – 2023. – 310 с.

Q.Qarayevin ilk fortepiano əsərlərindən olan "Üç səsli fuqa"da yalnız işarə ilə qeyd edilmiş mordent və arpecioya təsadüf edilir. Bəstəkarın sonatinasında (a moll) bəzəklərdən yalnız ikinci və qismən də üçüncü hissələrdə istifadə edilmişdir. İkinci hissədə forşlaq və mordent melodiyanın intonasiya gücünü artırmaq məqsədi ilə verilmişdir və incəliyi ilə seçilir.

Görkəmli bəstəkarın ilk fortepiano əsərlərində bəzəklər sadə formada verilmişdirsə, sonrakı illərdə, xüsusilə onun "24 prelüd" silsiləsində ornamentika özünün yüksək inkişaf nöqtəsinə çatır. Nümunə üçün onun a moll, h moll və e moll prelüdlərini göstərmək olar. Q.Qarayevin "24 prelüd" silsiləsində sərbəst ornamentika növlərindən istifadə olunduğu nömrələrdən biri qəhrəmani-dramatik obrazlı As dur prelüdüdür.

Bəstəkarın bəzi fortepiano əsərləri nümunəsində ornamentikanı təhlil edərkən, onun yaradıcılığına xas cəhətləri belə müəyyən etmək olar: a) ornamentika iki formada özünü göstərir: ornamentika üzərində qurulan melodiyalar və melodiyanın tərkibində melizmlərdən istifadə olunması; b) melodiyaların tərkibində nota fiksasiya edilmiş melizmlərin sekvensiyalarla verilməsi; c) sərbəst ornamentikadan yararlanma; d) ornamentikanın çox funksionallığı.

Milli ornamentikanın fortepiano opuslarında əks etdirilməsi sahəsində mühüm rolu F.Əmirov oynayır. Bəstəkarın ilk fortepiano əsərlərindən olan "Variasiyalar" silsiləsində sadə melizm növləri (mordent, forşlaq, arpecio) ilə yanaşı, onun fortepiano musiqisinin səciyyəvi xüsusiyyətinə çevrilən bəzəklərdən istifadə edilmişdir. Belə ki, dördüncü variasiyanın orta hissəsində verilən ornamentika trel üzərində qurulmuşdur. Birinci dəfə trel prefiksli verilmişdir, ikinci dəfə isə "cis$^{1}$" səsində tamamlanmışdır. Bu bəzək modelini bəstəkarın "12 miniatür" adlı silsiləsi və digər əsərlərində də müşahidə etmək olar.

F.Əmirovun və E.Nazirovanın ərəb mövzuları əsasında fortepiano və simfonik orkestr üçün Konsertində ornamental epizodlardan I hissənin işləmə bölməsində verilən rəqs melodiyasıdır. Burada dörd xanədən ibarət melodik mövzu ikinci dəfə səsləndə fioritura ilə verilir.

F.Əmirovun musiqisində ornamentika Qərb və Şərq sintezinin parlaq nümunəsidir. Bilavasitə, muğamın intonasiya xüsusiyyətlərinin təsiri altında yaradılmış və tərkibində trel, fioritura, tremolo, eləcə də qısa iki və çoxsəsli forşlaq və s. ibarət mürəkkəb melizm modelləri bu günə qədər Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələri tərəfindən istifadə olunur.

Milli musiqi ornamentikası tarixində yeni mərhələ pianoçu-improvizator, bəstəkar V.Mustafazadənin yaradıcılığı olmuşdur. Bəstəkarın məşhur "Bayatı-Şiraz" kompozisiyası basso-ostinato variasiyalarıdır. Bu kompozisiyada musiqiçi "es" mayəli bayatı-şiraz məqamının hər pilləsini bu və ya digər melizmlərlə toxumuşdur. Əsərin melodiyasında trel, mordent və forşlaq kimi bəzək növlərindən istifadə edilmişdir. Pyesdə forşlaqlar müxtəlif interval quruluşundadır (kvarta, kvinta və sekunda intervalında). V.Mustafazadənin ornamentikasında muğam tipli melodiyaların elementləri caz melodik hərəkətlər ilə uzlaşdırılmışdır. Melodiyanın bəzəklər vasitəsilə verilməsini bəstəkarın "Düşüncə", "Bakı gecələri" və s. kompozisiyalarında müşahidə etmək olar.

**2.3. "Müasir Azərbaycan bəstəkarlarının fortepiano musiqisində yeni yazı texnikası kontekstində ornamentikanın xüsusiyyətləri"** adlanır.

Müasir dövr fortepiano musiqisində ən önəmli məqam alətin hibridləşdirilməsidir. Yəni ifa zamanı alətin təkcə klavişlərindən deyil, taxta və dəmir konstruksiyalarından istifadə olunur. Bu baxımdan Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində alətin klavişlərində, daxili hissəsində ifa edilən müxtəlif ornamentika növlərinə rast gəlinir.

R.Həsənovanın "Alla Meykhana" əsərində müasir yazı kontesktində verilən müxtəlif bəzək işarələrinə rast gəlinir. Əsərdə "çırtma"dan istifadə edilir və o not mətnində qısa iki, üç, dörd səsli forşlaqlarla qeyd olunmuşdur.

Ornamentikanın səs effekti kimi təqdim olunduğu əsərlərdən biri də C.Quliyevin preparasiya olunmuş royal üçün nəzərdə tutulan muğam səssıralarında interlüdlərlə "Yeddi pyes" məcmuəsidir. Burada ornamentikanın özünəməxsusluğunu səciyyələndirən məqam əsərin ənənəvi üsullarla ifa edilməsi, lakin bu zaman royalın daxili

konstruksiyasına lastik və metal şrupun yerləşdirilməsidir. Bu da ifa zamanı spesifik ornamentikanı yaratmış olur.

Müasir Azərbaycan bəstəkarlarının yaradıcılığında elə fortepiano əsərləri vardır ki, burada ornamentika royalın daxili konstruksiyasında ifa edilir və not mətninə qeyri-ənənəvi simvollar vasitəsilə qeyd olunmuşdur. E.Mirzəyevin fortepiano əsərlərində bu cür ornamentikaya rast gəlinir.

Müasir yazı texnikası kontekstində əks olunan melizm nümunələrini F.Qarayevin, Z.Fəhradovun, daha sonra T.İbişovun, A.Qəmbərlinin, T.Qasımzadənin fortepiano əsərlərində də müşahidə etmək mümkündür.

Dissertasiyanın **III fəsli – "Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın spesifik xüsusiyyətləri"** adlanır. Burada Qərbi Avropa və Azərbaycana fortepiano musiqisində ornamentikanın xüsusiyyətləri müəyyən edilmişdir. Qeyd edilən fəsil üç paraqrafdan ibarətdir.

**3.1. "Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın klassik formaları"** adlanır. Bu paraqrafda Qərbi Avropa və Azərbaycan fortepiano musiqisində melizmlərin təşkilolunma prinsipləri aydınlaşdırılmış və sadə melizmlərin təsnifatı aparılmışdır.

Musiqi ornamentikası sahəsində Azərbaycan bəstəkarlarının fortepiano musiqisi timsalında üç xətti ayırd etmək olar: 1) klassik ornamentika; 2) mürəkkəb ornamentlər və 3) melizm zəncirləri fəndi – formanın əsası kimi.

Qərbi Avropa musiqisində olduğu kimi, Azərbaycan fortepiano musiqisində də sadə bəzəklər dedikdə buraya trel, forşlaq, mordent, qruppetto, arpecio və başqa bu kimi melizm növləri, tremolo, qlissando, müxtəlif ritmik və melodik fiqurasiyalardan yaranan ornamentallıq, eləcə də fakturanın tamamilə və ya qismən də olsa ornamental təqdimatı və s. aiddir. Bütün bu məqamlar Azərbaycan fortepiano musiqisini Qərbi Avropa fortepiano musiqisi ilə yaxınlaşdıran səciyyəvi cəhətlərdəndir.

Eyni zamanda dissertasiyada ornamentikanın tədqiqi əsnasında Azərbaycan musiqişünaslarının elmi işləri əsasında Azərbaycan xalq musiqisində istifadə olunan bəzək terminləri də toplanılmışdır.

**3.2. "Azərbaycan bəstəkarlarının fortepiano musiqisində mürəkkəb ornamentika növləri"** adlanır. Burada Azərbaycan fortepiano musiqisində mürəkkəb ornamentika növləri araşdırılmışdır.

Azərbaycan fortepiano musiqisi tarixində bəstəkarlarımızın bu sahədə qazandığı ən mühüm nailiyyət mürəkkəb ornamentika olmuşdur. Əlbəttə, Qərbi Avropa musiqisində də mürəkkəb elementli bəzək formullarına rast gəlinir. Lakin Qərbi Avropa və Azərbaycan fortepiano musiqisində mürəkkəb formulların öz quruluşuna görə həm oxşar və həm də fərqli xüsusiyyətə malik olması, burada müxtəlifliyi yaradan başlıca səbəblərdən biridir.

Quruluşuna görə mürəkkəb ornamentlər – musiqi ibarələridir. Mürəkkəb bəzəklər iki və daha melizm növlərindən təşkil olunur. Bu zaman bəzəklərin kompozisiyada öz funksiyasını genişləndirməsini qeyd etmək olar. Mürəkkəb ornamentika növləri tematik element kimi fəaliyyət göstərməyə başlayır və formatörədici vasitələrə yaxınlaşır. Azərbaycan bəstəkarları mürəkkəb ornamentikanın tərtibində Qərbi Avropa nəzəriyyəsindən və muğamın intonasiya xüsusiyyətlərindən istifadə etməklə sxemlər yaratmışdır. Ümumiyyətlə, mürəkkəb ornamentika növləri Qərb və Şərq musiqi mədəniyyətlərinin sintezi tarixində mühüm xətti təşkil edir.

**3.3. "Azərbaycan bəstəkarlarının improvizə xüsusiyyətli fortepiano əsərlərində "melizm zəncirləri fəndi"** adlanır. "Melizm zəncirləri fəndi" uzun musiqi cümlələrinin müxtəlif ornamentika növləri ilə ardıcıl və fasiləsiz olaraq bəzədilməsidir. C.Hacıyevin "Ballada", X.Mirzəzadənin "Ohne", A.Əlizadənin "Dastan", A.Əzimovun "Dörd prelüd" əsərlərində "melizm zəncirləri fəndi" müxtəlif formalarda öz əksini tapmışdır.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Aparılan təhlillər aşağıdakı nəticələrin əldə olunmasına imkan verir.

– Ornamentika Qərbi Avropa fortepiano musiqisinin istənilən mərhələsində mühüm əhəmiyyətə malik olmuşdur. Bəzək mədəniyyəti aid olduğu dövrün üslub xüsusiyyətlərini özündə əks etdirir. Bu öz təsdiqini Barokko, klassisizm, romantizm, impressionizm və eləcə də müasir dövr fortepiano musiqisində tapır.

– Azərbaycan fortepiano musiqisində ornamentikanın kökləri milli musiqimizə əsaslanır və fortepiano musiqisində ornamentikanın yaranmasına səbəb olur;

– Azərbaycan bəstəkarları fortepiano əsərlərində 1) klassik bəzəklər; 2) mürəkkəb tərkibli ornamentika və 3) formanı doldurma imkanına malik "melizm zəncirləri fəndi" mərhələlərini keçmişlər;

– Q.Qarayevin fortepiano opuslarında ornamentika modelləri onu göstərir ki, bəstəkar klassisizm, romantizm və Azərbaycan xalq musiqisi üçün səciyyəvi cəhətlərdən geniş istifadə etmişdir.

– F.Əmirov milli ornamentikanın fortepiano opuslarında əks etdirilməsi sahəsində mühüm rola malik bəstəkar kimi çıxış etmişdir. Onun yaradıcılığında ornamentika muğam melodiyalarının bir çox qaydalarını qəbul etmişdir.

– "Melizm zəncirləri fəndi" V.Mustafazadə yaradıcılığının simvoluna çevrilmişdir. Bəstəkarın yaradıcılığında "melizm torları" formatörədici vasitə kimi çıxış edir.

– Müasir Azərbaycan bəstəkarlarının fortepiano musiqisində ornamentikanın qrafik şəkilləri və qeydlərinin avanqard yazı texnikaları istiqamətində yeniləşməsi müşahidə olunur. Muğam elementləri sonor, klaster, dodekafoniya, kollaj, seriya, qrafika, polimusiqi, puantilizm ilə sintez olunur. Bu sintezdə Azərbaycan bəstəkarları cəsarətlə ornamentlərin də yeni işarə və qrafik şəkillərini qeyd etməyə başladılar. Burada bəzəklər təkcə alətin klavişlərində deyil, həm də alətin daxilində – simlərində, eləcə də metal və taxta konstruksiyasında müxtəlif vasitəsilərlə ifa edilir;

– Azərbaycan bəstəkarları bütün klassik melizmləri məqamın səsqatarlarında düşünüb, tətbiq etmişlər. Onların fortepiano əsərlərində klassik melizm istiqamətində əsas yenilik – milli məqam səsqatarları üzərində bəzəklərin qurulmasıdır;

– Mürəkkəb tərkibli ornamentlərin növləri tematik element funksiyasında da çıxış edir. Çox vaxt mürəkkəb tərkibli ornamentika növləri milli məktəblərin xüsusiyyətlərindən biri kimi çıxış edir;

– Azərbaycan bəstəkarlarının improvizəsayağı fortepiano əsərlərində "melizm zəncirləri fəndi" istifadə olunur. Məhz bu əsərlərdə onlar muğamın, aşıq musiqisinin, cazın, avanqard

musiqinin tendensiyalarını cəsarətlə "köçürməyə" başladılar. Burada "melizm zəncirləri fəndi" aparıcı formatörədici vasitə kimi çıxış edir.

– Beləliklə, Qərbi Avropa və Azərbaycan bəstəkarlarının fortepiano əsərləri kontekstində melizmlərin tədqiqi onu göstərir ki, ornamentika daim yeni musiqi cərəyanlarına daxil olur və milli musiqi mədəniyyətləri şəraitində yeniləşir.

**Dissertasiyanın elmi nəticələri müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

1. Bəkirova, G.M. Azərbaycan xalq mahnılarında ornamentallıq // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVII Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 12-13 mart, – 2018, – s. 276-279.
2. Bəkirova, G.M. Pedaqoji təcrübədə ornamental etüdlərin rolu və fortepiano texnikasının inkişafında əhəmiyyəti // Beynəlxalq musiqi təhsili cəmiyyəti 33-cü Dünya Konfransı, Türk Dünyası oturumu, – Bakı: – 15-20 iyul, – 2018, – s. 103-107.
3. Bəkirova, G.M. L.V.Bethovenin op. 2 № 1 f-moll sonatasında bəzi bəzəklərin ifa xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları, – Bakı: – 22-23 noyabr, – 2018, – s. 461-463.
4. Bəkirova, G.M. Azərbaycan musiqisində ornamentallıq // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVIII Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 11-12 aprel, – 2019, – s. 105-107.
5. Бакирова, Г.М. Орнаментика в мугаме // Материалы XI Международной научной конференции «Искусство глазами молодых», – Красноярск: – 28-29 март, – 2019, – с. 86-88.
6. Bəkirova, G.M. Ü.Hacıbəyli və Q.Qarayevin fortepiano musiqisində bəzi ornamental xüsusiyyətlər // Müasir Azərbaycan bəstəkarı və zaman. Doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransının materialları və elmi məqalələr toplusu, – Bakı: – 11-12 aprel, – 2019, – s. 29-34.
7. Bəkirova, G.M. Ornamentikanın incəsənətin müxtəlif növlərində təzahür formaları // – Naxçıvan: Axtarışlar, – 2020. Cild 12, № 2 (36), – s. 170-174.

8. Bakirova, G.M. The history of ornamentation development in music, principles of its formation and performance style // – Kyiv: Bulletin of Kyiv National University of Culture and Arts. Musical Art Series, – 2020. Vol. 3. № 2, – pp. 169-180.
9. Bəkirova, G.M. XVII-XVIII əsr Qərbi Avropa klavir musiqisində ornamentika-struktur məsələləri və melodiyanın ornamentləşdirilməsinin xüsusiyyətləri // – Bakı: Mədəniyyət dünyası, – 2021. XXXX, – s. 30-39.
10. Bəkirova, G.M. Musiqidə ornamentallıq bədii yaradıcılığın bir forması kimi // – Bakı: Sənət akademiyası, – 2021. № 3 (15), – s. 94-101.
11. Bəkirova, G.M. Romantizm dövrü Qərbi Avropa fortepiano musiqisində ornamentikanın xüsusiyyətləri // – Naxçıvan: Axtarışlar, – 2021. Cild 15, № 4 (41), – s. 247-257.
12. Bəkirova, G.M. Şərq və Qərb mədəniyyətləri qovşağında Azərbaycan incəsənətinin ornamental təbiəti haqqında // – Bakı: Qərbi Kaspi Universitetinin elmi xəbərləri, Humanitar elmlər seriyası, – 2021. № 4, – s. 71-78.
13. Бакирова, Г.М. Особенности мелизмов в контексте музыки XX века на примере «Макрокосмоса» Джорджа Крама (I тетрадь) и фортепианной музыки азербайджанских композиторов // – Москва: Музыка и время, – 2022. № 1, – с. 12-19.
14. Bəkirova, G.M. Qara Qarayevin fortepiano musiqisində ornamentikanın bəzi xüsusiyyətləri // – Bakı: Musiqi dünyası, – 2022. №1/90, – s. 44-54.
15. Bəkirova, G.M. Azərbaycan fortepiano musiqisində ornamentikanın tarixi konteksdə inkişaf prinsipləri // – Bakı: Gənc tədqiqatçı, – 2022. VIII cild. №1, – s. 195-208.
16. Bəkirova, G.M. Ornamentallıq Cövdət Hacıyevin "Ballada" və Aqşin Əlizadənin "Dastan" əsərlərinin improvizə üslubunun ifadə vasitəsi kimi // – Bakı: Konservatoriya, – 2022. № 2 (55), – s. 62-73.
17. Бакирова, Г.М. Принципы орнаментики в фортепианных сонатах Йозефа Гайдна и особенности трели в

фортепианных сонатах Людвига ван Бетховена // – Москва: Музыковедение, – 2022. № 2, – с. 24-31.

18. Бакирова, Г.М. Расшифровка отдельных обозначений украшений, присущих английской, немецкой и итальянской клавирной музыке XVII-XVIII веков // «Слово молодых ученых: актуальные вопросы искусствознания». Материалы XXI Всероссийской научной конференции с международным участием, – Саратов: – 18-23 апрель, – 2022, – с. 139-144.
19. Бакирова, Г.М. Особенности орнаментики в композиции Вагифа Мустафазаде «Баяты-Шираз» // Материалы XIV Международной научной конференции «Искусство глазами молодых», – Красноярск: – 20-21 апрель, –2022, – с. 15-17.
20. Bəkirova, G.M. Fikrət Əmirovun fortepiano musiqisində bəzi bəzək növlərinin təzahür formaları // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XXI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 26-27 aprel, – 2022, – s. 55-59.
21. Bəkirova, G.M. Azərbaycan bəstəkarlarının fortepiano musiqisində müasir yazı texnikası kontekstində ornamentikanın bəzi xüsusiyyətləri // Bəstəkar və zaman. Respublika elmi konfransının materialları, – Bakı: – 4-5 may, – 2022, – s. 65-72.

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2024-cü il tarixində saat 11⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 iyul 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.07.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 40 672 işarə

Tiraj: 100